**44 günlük Vətən müharibəsi çoxəsrlik tariximizin şanlı qürur səhifəsidir. Bu Zəfər yürüşünün hər anı, hər məqamı qəhrəmanlıq dastanı, cəsarətli və şərəfli Azərbaycan xalqının mübarizə nümunəsidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. 44 gün davam edən Vətən müharibəsi, torpaqlarımızın mənfur düşməndən təmizlənməsi tariximizin qızıl səhifəsi oldu.**

# Şuşa fatehi



Azərbaycan milli qürur və milli ləyaqətin də bərpasına müvəffəq olmaqla şərəfli tarix yazdı. Rəşadətli ordumuz 300-dən çox şəhər və kəndi bilavasitə döyüş meydanında azad etdi. Şuşanın işğaldan azad edilməsi isə ayrıca bir qəhrəmanlıq dastanıdır.

Azərbaycan Silahlı Qüvvələrinin polkovniki, Vətən müharibəsinin ən məşhur igidlərindən olan Tehran Mənsimov barədə söz açacağıq. Əvvəlcə onu deyək ki, bu qəhrəman və qorxmaz insanı ölkəmizdə böyükdən-kiçiyə hər kəs tanıyır, sevir və böyük ehtiram göstərir. Polkovnik Tehran Mənsimov Azərbaycan ictimaiyyəti tərəfindən daha çox "Şuşa fatehi" kimi tanınır.

Polkovnik Tehran Mənsimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərimizin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan 44 günlük Vətən müharibəsində fəal iştirak edib. O, noyabrın 4-dən 8-nə qədər davam edən Şuşa döyüşlərində şəhərə daxil olan ilk zabitlərdəndir. O, döyüşlərdə əsl qəhrəmanlıq və saysız-hesabsız igidlik nümayiş etdirib.

Azərbaycanın igid oğlunun şücaəti Prezident İlham Əliyev tərəfindən layiqincə qiymətləndirilib. Belə ki, Vətən müharibəsindəki qəhrəmanlığına görə 2020-ci ildə ona ölkə başçısının sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni verilib. Eyni zamanda o, "Şuşanın azad olunmasına görə" medalı ilə də təltif olunub. Prezidentin 24 iyun 2021-ci il tarixli sərəncamları ilə Tehran Mənsimova "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları verilib. Onu da qeyd edək ki, Tehran Mənsimov həmçinin 2005-ci ildə "İgidliyə görə", 2017-ci ildə isə "Vətən uğrunda" medalları ilə təltif edilib.

Xatırladaq ki, Tehran Mənsimov 1972-ci il avqustun 24-də Qusar rayonunun Düztahir kəndində anadan olub. 1989-cu ildə orta məktəbi bitirib. 1990-1992-ci illərdə keçmiş sovet ordusu sıralarında qulluq edib. Daha sonra Azərbaycan Milli Ordusunda xidmətə başlayıb. Könüllü olaraq Birinci Qarabağ müharibəsinə yollanaraq, cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə fəal iştirak edib. Ardınca Ali Hərbi Məktəbdə təhsil alıb və ona leytenant rütbəsi verilib. 2011-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına daxil olub və 26 iyun 2013-cü ildə həmin akademiyanı fərqlənmə ilə bitirib. Qarabağ bölgəsində taqım komandirliyindən briqada komandirliyinə kimi xidmət yolu keçib. Bir müddət sonra Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunda xidmətə başlayıb və Şahbuz rayonundakı hərbi hissənin komandiri olub.

Qeyd edək ki, Tehran Mənsimov hazırda Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətində çalışır. Polkovnik bundan əvvəl Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Döyüş Hazırlığı və Tədris İdarəsinin rəisi olmuşdur.

Mətbuata verdiyi açıqlamada "Şuşa fatehi" böyük Qələbənin qazanılmasında Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruhyüksəkliyinin əsas faktor olduğunu bildirib: "Təbii ki, 44 günlük müharibədə ordumuz nəyə qadir olduğunu göstərdi. Heç şübhəsiz ki, bunun da əsasında Ali Baş Komandan tərəfindən uğurla aparılan ordu quruculuğu siyasəti, mükəmməl hərbi kadr potensialının formalaşması, müasir hərbi silahlanma – bir sözlə, sarsılmaz hərbi qüdrətimiz durur. Xüsusilə ciddi nizam-intizam, ordunun tam püxtələşməsi, zabit və əsgərlərimizin həm psixoloji, həm də döyüş hazırlığının yüksək səviyyədə olması qələbəmizin əsasını təşkil etdi".

Bir sözlə, 44 günlük Vətən müharibəsi Zəfər salnaməsi – Qələbə dastanıdır. Bu Qələbə Azərbaycan xalqının əzminin, sarsılmaz milli ruhunun, dövlətinin və ordusunun gücünün, Prezident İlham Əliyevin möhtəşəm siyasi liderlik və rəhbərlik bacarığının ən parlaq təzahürü oldu. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və biz bundan sonra da müzəffər xalq və qalib dövlət kimi yaşayacağıq. Zəfər bayramınız mübarək!

**Mahmud QƏRİBOV,**
**"Xalq qəzeti"**